"Təsdiq edirəm"

Naxçıvan Dövlət Universitetinin

rektoru: E.S.İsayev

26 dekabr 2023–cü il

**Naxçıvan Dövlət Universitetində pedaqoji internaturaya dair**

# QAYDALAR

## 1. Giriş

1.1. Naxçıvan Dövlət Universitetində pedaqoji internaturaya dair Qaydalar (bundan sonra Qaydalar) ixtisaslı kadrların hazırlanması, onların ixtisasları üzrə aldıqları biliklərin təkmilləşdirilməsi, ixtisas və peşə səriştəliliyinin yüksəldilməsi, habelə pedaqoji internaturaların təşkilində və keçirilməsində vahidliyin gözlənilməsi, təcrübələrin qiymətləndirmə meyarları və üsulları, bəzi ixtisaslarda təcrübələrin mərhələlər üzrə müddəti və qiymətləndirilməsi, habelə təcrübə dövründə müvafiq sənədlərin tərtib edilməsi məqsədilə hazırlanmışdır.

1.2. Pedaqoji internatura ali təhsil müəssisəsinin rəhbərinin - rektorun əmrinə əsasən başlayır və bunun üçün əvvəlcədən təcrübə bazaları ilə müqavilələr bağlanmalıdır.

1.3. Pedaqoji internaturanın təşkili üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2008-ci il 26 sentyabr tarixli, 1102 saylı əmri ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2023-cü il 24 iyun tarixli, 3-29/2-4063/2023 saylı məktubu, qüvvədə olan mövcud tədris planları və bu Qaydalar əsas götürülür.

1.4. Pedaqoji internatura üçün nəzərdə tutulmuş 30 kreditdən 21-i pedaqoji internaturaya (ümumtəhsil məktəblərində pedaqoji internaturanın keçirilməsinə), 9-u isə hesabatların hazırlanması, müzakirəsi, təqdim edilməsi və qiymətləndirilməsinə ayrılır.

**Qeyd**: Pedaqoji internaturaya yalnız Tədris planında nəzərdə tutulmuş tam kursu yerinə yetirən (kredit borcu olmayan) tələbələr buraxılır.

## 2. Təcrübələrin qiymətləndirilməsi

2.1. Hər bir tələbə təcrübə müddətində gördüyü işlərə, müvafiq sənədlərin lazımi səviyyədə yerinə yetirilməsinə və təqdim etdiyi hesabata görə ali təhsil müəssisəsi tərəfindən müəyyən edilmiş qiymətləndirmə üsulu və meyarlarına əsasən 100 ballıq sistemlə qiymətləndirilir.

2.2. Tələbələrin təcrübələrinin qiymətləndirilməsi iki mərhələdə aparılır;

2.2.1. Tələbələrin təcrübə dövründəki fəaliyyətlərinə görə (Təcrübə dövründəki fəaliyyətlərə görə qiymətləndirilmə ixtisas üzrə təcrübə rəhbəri (metodist), pedaqoq, psixoloq və fənn müəllimi tərəfindən aparılır);

CamScanner ile tarandı

2.2.2. Tələbələrin təqdim etdiyi təcrübənin hesabatına görə (Təcrübənin hesabatına görə qiymətləndirilməsi isə ali təhsil müəssisəsinin rəhbərinin əmrinə əsasən yaradılmış təcrübə komissiyası tərəfindən aparılır).

2.3. Təcrübələrdə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan tələbələr təkrar təcrübə (ödənişli əsaslarla) keçməlidirlər.

## 3. Qiymətləndirilmə meyarları

3.1. Təcrübənin nəticələri 100 ballıq sistem üzrə qiymətləndirilir.

3.2. Qiymətləndirmə meyarları (Tələbənin təcrübədəki fəaliyyəti və hesabatın qiymətləndirilməsi) aşağıdakı kimidir.

3.2.1. Davamiyyət - 10 bal (maksimum) (Davamiyyətə verilən balın hesablanması qaydası:

Tələbənin təcrübədə iştirak etdiyi günlərin sayı davamiyyətə ayrılan maksimum bala (10 bal) vurularaq, təcrübədə iştirak etməli olduğu günlərin sayına bölünməklə hesablanır. **Nümünə:** Məsələn, tutaq ki, tələbə təcrübədə 70 gün iştirak etməlidir. Lakin təcrübənin 64 günündə iştiraki edib. $\frac{64\times10}{70} = 9{,}14$ Deməli, tələbə davamiyyətdən 9,14 bal alıb.

Tələbənin təcrübədə iştirak etmədiyi günlər 25% və daha çox olduqda tələbə təcrübədən keçməmiş sayılır və tələbə təcrübəni təkrar keçməlidir).

3.2.2. Sınaq dərslərinə verilən bal - 50 bal (maksimum)

3.2.2.1. Hər bir tələbə pedaqoji internatura dövründə 14 sınaq dərsi (qoşa ixtisaslarda 7+7) aparmalıdır.

3.2.2.2. Təcrübəçi tələbənin keçdiyi hər bir dərsə maksimum 10 bal verilir.

3.2.2.3. Təcrübəci tələbənin sınaq dərslərindən aldığı ballar cəmlənir və təcrübəçi tələbənin keçməli olduğu dərslərin miqdarına bölünür. Alınan nəticə 5-ə vurularaq təcrübəçi tələbənin balı hesablanır.

**(Nümünə**: Tutaq ki, təcrübəci tələbə apardığı sınaq dərslərindən 9,8,6,7,5,8,4,3,6,6,8,4,6,9 kimi qiymətlər (bal) alıb. Bu qiymətlər cəmlənir 9+8+6+7+5+8+4+3+6+6+8+4+6+9 = 89 alarıq. Qiymətlərin cəmi 14-ə bölünür və 5-ə vurulur. (Burada 14, deyilən sınaq dərslərinin sayıdır. Maksimum bal 50 olduğu üçün alınan qismət bütün hallarda 5-ə vurulacaq) $\frac{89}{14}\times 5 = 31{,}7$ Deməli təcrübəçi tələbə sınaq dərslərindən ümumilikdə 31,7 bal almış olur).

3.2.3. Pedaqogika üzrə təcrübə rəhbəri tərəfindən verilən bal - 20 bal (maksimum) ((məktəb direktoru, direktor müavini, sinif rəhbərinin tələbə haqqındakı fikirləri məhz bu qiymətləndirilmədə nəzərə alınır).

3.2.4. Psixologiya üzrə təcrübə rəhbəri tərəfindən verilən bal - 10 bal (maksimum) (məktəb psixoloqunun tələbə haqqındakı fikirləri məhz bu qiymətləndirilmədə nəzərə alınır).

3.2.5. Tələbənin hazırladığı hesabata görə verilən bal – maksimum 10 bal

3.3. Hər hansı mərhələdən qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir və o, hesabata buraxılmır.

CamScanner ile tarandı

## 4. Hesabatların qiymətləndirilməsi

4.1. Təcrübənin sonunda təcürbəçi tələbə təcrübə dövründəki fəaliyyəti ilə bağlı müvafiq qaydada hesabat verməlidir. Hesabatın qiymətləndirilməsi üçün fakültə dekanının təqdimatına əsasən rektorun əmri ilə komissiya yaradılır. Hər bir tələbə komissiya qarşısında təcrübə dövründə gördüyü işlərlə bağlı hesabatını təqdim etməlidir. Yuxarıda da qeyd edildiyi kimi hesabatlar maksimum 10 balla qiymətləndirilir. (Komissiya üzvlərinin hər biri 10 bal üzərindən tələbəni qiymətləndirir. Verilən ballar toplanır və qiymətləndirmə aparan üzvlərin sayına bölünür.)

4.2. Hesabatin dinlənməsi və qiymətləndirilməsində təcrübə bazasının nümayəndəsinin iştirakı zəruridir. Hesabatların qiymətləndirilməsi zamanı tələbənin təcrübə dövründə hansı bilik, bacarıq və vərdişlərə yiyələndiyinə xüsusi diqqət yetirilməlidir.

4.3. Təcrübə dövründə tələbənin aldığı ballar (davamiyyət balı, sınaq dərslərinin balı, pedaqoq və psixoloq tərəfindən verilən bal) və hesabatdan aldığı bal toplanır və yekun qiymət çıxarılır.

4.4. Təcrübəçi tələbə aşağıdakı hallarda hesabata buraxılmır və həmin tələbənin təcrübəsi müfəvvəq sayılmır:

4.4.1. davamiyyət limitini aşarsa;

4.4.2. sınaq dərsindən ümumilikdə 17 baldan az toplayarsa (qoşa ixtisaslarda bu, hər iki fənn üçün nəzərə alınsın);

4.4.3. öz sınaq dərslərinin 50%-ni icra etməzsə (qoşa ixtisaslarda hər fənn üçün ayrı nəzərə alınsın);

4.4.4. pedaqoq və ya psixoloq tərəfindən qeyri-müvəffəq qiymət verilərsə;

4.4.5. müəssisə rəhbərliyi tərəfindən müsbət rəy ala bilməzsə.

4.5. Hesabata buraxılmayan, hesabatını təqdim etməyən və ya hesabatdan 0 (sıfır) bal alan tələbə təcrübəni keçməmiş sayılır və o təkrar təcrübədən keçməlidir!

4.6. Yekun qiymətləndirilmədə həm tələbənin topladığı bal, həmdə ona uyğun qiymət yazılmalıdır.

4.7. Toplana biləcək ballar və onlara uyğun qiymətləndirilmə aşağıdakı kimidir.

| | | |
|---|---|---|
| -51 baldan aşağı | - qeyri -kafi | - F |
| -51-60 bal | - qənaətbəxş | - E |
| -61-70 bal | - kafi | - D |
| -71-80 bal | - yaxşı | - C |
| -81-90 bal | - çox yaxşı | - B |
| -91-100 bal | - əla | - A |

## 5. Əyani şöbədə keçiriləcək pedaqoji internaturaya ayrılmış saatların BÖLGÜSÜ

5.1. Hər biri tələbə pedaqoji internatura dövründə 14 sınaq dərsi keçməlidir (qoşa ixtisaslarda 7 dərs + 7 dərs)

5.2. Bir tələbənin poedaqoji internaturası üçün ayrılan saat - cəmi 56 saat

5.3. Təcrübə rəhbərinə (metodist) ayrılan saat - cəmi 31 saat (Bir dərs üçün (dərsə hazırlıq, dərsin dinlənməsi və müzakirəsi) 2 saat yazılmalıdır. 2x14=28 saat, 3 saat isə digər

CamScanner ile tarandı

işlər üçün nəzərdə tutlmalıdır). Qoşa ixtisaslarda təcrübə rəhbərinə (metodistə) ayrılan saatlar iki yerə bölünür (16 saat + 15 saat) və hər bir metodist üçün 14 saat sınaq dərsləri (2x7=14 saat), digər işlər üçün ayrılan 3 saat isə 2 saat +1 saat kimi nəzərdə tutulmalıdır).

5.4. Pedaqogika üçrə təcrübə rəhbərinə ayrılan saat - cəmi 4 saat
5.5. Psixologiya üçrə təcrübə rəhbərinə ayrılan saat - cəmi 2 saat
5.6. Məktəb direktoruna ayrılan saat - cəmi 1 saat
5.7. Direktor müavininə ayrılan saat - cəmi 1 saat
5.8. Fənn müəllriminə ayrılan saat - cəmi 14 saat (Bir dərs üçün 1 saat)
5.9. Sinif rəhbərinə ayrılan saat - cəmi 1 saat
5.10. Məktəb üzrə təcrübə rəhbərinə ayrılan saat - cəmi 2 saat

## 6. Əyani şöbədə Məşqçilik ixtisası üzrə keçiriləcək pedaqoji internaturaya ayrılmış saatların bölgüsü və tələbələrin qiymətləndirilməsi

6.1. Hər biri tələbə pedaqoji internatura dövründə 7 sınaq dərsi keçməlidir.

6.2. Bir tələbənin poedaqoji internaturası üçün ayrılan saat - cəmi 28 saat

6.2.1. Təcrübə rəhbəri (metodist) – cəmi 15 saat (Bir dərs üçün (dərsə hazırlıq, dərsin dinlənməsi və müzakirəsi) 2 saat yazılmalıdır. (2x7=14 saat), 1 saat isə digər işlər üçün nəzərdə tutlmalıdır).

6.2.2. Pedaqogika üçrə təcrübə rəhbərinə ayrılan saat - cəmi 2 saat
6.2.3. Psixologiya üçrə təcrübə rəhbərinə ayrılan saat - cəmi 1 saat
6.2.4. Məktəb direktoruna ayrılan saat - cəmi 0,5 saat
6.2.5. Direktor müavininə ayrılan saat - cəmi 0,5 saat
6.2.6. Fənn müəllimlinə ayrılan saat - cəmi 7 saat (Bir dərs üçün 1 saat)
6.2.7. Sinif rəhbərinə ayrılan saat - cəmi 1 saat
6.2.8. Məktəb üzrə təcrübə rəhbərinə ayrılan saat - cəmi 1 saat

6.3. Məşqçilik ixtisası üzrə keçiriləcək pedaqoji internaturada hər bir tələbə 100 ballıq sistemlə qiymətləndirilir.

6.3.1. Davamiyyət - 10 bal (maksimum) (Davamiyyətə verilən balın hesablanması qaydası:Tələbənin təcrübədə iştirak etdiyi günlərin miqdarı davamiyyətə ayrılan maksimum bala (10 bal) vurulur və təcrübədə iştirak etməli olduğu günlərin miqdarına bölünür hesablanır. Tələbənin təcrübədə iştirak etmədiyi günlər 25%-dən çox olduqda tələbə təcrübə keçməmiş sayılır. **Nümunə:** Məsələn, tutaq ki, tələbə təcrübədə 50 gün iştirak etməlidir. Lakin 44 günündə iştiraki edib. $\frac{44\times10}{50} = 8{,}8$ Deməli, tələbə davamiyyətdən 8,8 bal alıb).

6.3.2. Sınaq dərslərinə verilən bal - 50 bal (maksimum) (Təcrübəçi tələbənin keçdiyi hər bir dərsə maksimum 10 bal verilir (metodist tərəfindən). Təcrübəci tələbənin dərslərdən aldığı ballar cəmlənir və təcrübəçi tələbənin keçməli olduğu dərslərin miqdarına bölünür. Alınan nəticəni 5-ə vuraraq təcrübəçi tələbənin balı hesablanır. **Nümunə**: Tutaq ki, təcrübəci tələbə apardığı sınaq dərslərindən 9,8,6,7,5,8,4 kimi qiymətlər (bal) alıb. Biz ballar cəmlənir (9+8+6+7+5+8+4= 47). Alınan cəm 7-yə bölünür və 5-ə vurulur. (Burada 7 deyilən dərslərin sayıdır, alınan qismət bütün hallarda 5-ə vurulacaq (maksimum bal 50 olduğu üçün)) $\frac{47}{7} \times 5 = 33{,}5$ Deməli təcrübəçi tələbə sınaq dərslərindən 33,5 bal alır).

6.3.3. Pedaqogika üzrə təcrübə rəhbəri tərəfindən verilən bal - 20 bal (maksimum) (məktəb direktoru və ya onun müavini, həmçinin sinif rəhbərinin də tələbə haqqındakı fikirləri bu qiymətləndirilmədə nəzərə alınır)

CamScanner ile tarandı

6.3.4. Psixologiya üzrə təcrübə rəhbəri tərəfindən verilən bal - 10 bal (maksimum) (məktəb psixoloqunun tələbə haqqındakı fikirləri bu qiymətləndirilmədə nəzərə alınır)

6.3.5. Hesabata verilən bal - 10 bal (maksimum)

6.4. Məşqçilik ixtisasında hər iki təcrübənin (pedaqoji internatura və məşqçilik) balları toplanaraq ədədi orta çıxarılır.

6.5. Hər bir mərhələyə (təcrübəyə) ayri-ayrılıqda ayrılmış saatların 25%-dən çoxunda iştirak etməyən tələbə həmin mərhələ üzrə qiymətləndirilməyə buraxılmır.

6.6. Hər hansı mərhələdən və təcrübədən (pedaqoji internatura və məşqçilik) qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir, növbəti mərhələyə buraxılmır və o, təkrar təcrübə keçməlidir.

## 7. Pedaqoji internaturaya dair sənədlər

7.1. Tələbənin təcrübəyə dair qovluğunda olmalı sənədlər:

7.1.1. Sınaq dərslərinin icmalları (protokollarla birgə);

7.1.2. Fərdi plan;

7.1.3. Gündəlik (Tərbiyəvi tədbirə aid məlumatlar (mətn, proqram, bir neçə fotaşəkil və s.), psixoloji müşahidənin qeydləri, təhkim olunduğu sinif haqqında məlumatlar da daxil olmaqla bütün bölmələr tamamlanmalı);

7.1.4. Təcrübə müddətində hazırladığı tədris resursları (əgər varsa);

7.1.5. Təcrübəyə dair təkliflər (əgər varsa);

7.1.6. Hesabat;

7.1.7. Tələbə haqqında müəssisənin rəyi (xasiyyətnamə).

7.2. Təcrübə rəhbərindən (metodistdən) tələb olunan sənədlər:

7.2.1. Pedaqoji internaturanın jurnalı;

7.2.2. Sınaq dərslərinin icmalları (protokol);

7.2.3. Tələbələrin hazırladığı əyani vəsaitlər;

7.2.4. Nümunəvi dərslərdən və dərslərin müzakirəsindən fotoşəkillər və videogörüntülər;

7.2.5. Tələbələrin hesabatı;

7.2.6. Təcrübə rəhbərinin (metodistin) hesabatı;

7.2.7. İxtisasa bağlı keçirilən tədbirlərə (əgər varsa) aid fotoşəkillər;

7.2.8. Hər bir tələbə üçün onun keçdiyi təcrübə haqqında müəssisə rəhbərinin imzası və müəssisənin rəsmi möhürü ilə təsdiqlənmiş rəy;

7.3. Pedaqoqdan tələb olunan sənədlər:

7.3.1. Gündəlik (tam şəkildə hazır olmasına pedaqoq məsuldur);

7.3.2. Fərdi plan (tam şəkildə hazır olmasına pedaqoq məsuldur);

7.3.3. Tərbiyəvi tədbir haqqında qeydlər (protokol ilə birlikdə, gündəliyin daxilində);

7.3.4. Keçirilən tədbirlərin proqramı, tədbirin görüntüləri əks olunan fotoşəkillər və videogörüntülər;

7.3.5. Pedaqoqun hesabatı.

7.4. Psixoloqdan tələb olunan sənədlər:

7.4.1. Psixoloji müşahidələr haqqında qeydlər (gündəliyin daxilində);

7.4.2. Keçirilən psixoloji söhbətlərin, konsultasiyaların, təlimlərin görüntüləri əks olunan fotoşəkillər və videogörüntülər;

7.4.3. Psixoloqun hesabatı.

CamScanner ile tarandı

7.5. Fakültə dekanından tələb edilən sənədlər:
7.5.1. Pedaqoji internaturanın jurnalı;
7.5.2. Fakültə üzrə təcrübələrin yekun hesabatı;
7.5.3. Qiymətləndirilmə protokolları.
7.6. Müəssisə rəhbərliyi tərəfindən təcrübəçi tələbəyə verilən rəyin məzmununa olan tələblər (xasiyyətnamə):
7.6.1. Təcrübəçi tələbəyə təcrübə keçməsinə dair təcrübədə olduğu müəssisənin rəhbərliyi tərəfindən rəy verilməlidir. Rəydə əsasən aşağıdakı tələblər öz əksini tapmalıdır:
7.6.1.1. Tələbənin təcrübə keçdiyi müəssisənin tam adı;
7.6.1.2. Rəyin aid olduğu tələbənin adı, soyadı, atasının adı və ixtisas;
7.6.1.3. Tələbənin peşəkar bacarıqları;
7.6.1.4. Tələbənin təcrübə rəhbərləri tərəfindən tapşırılan tapşırıqlara münasibəti və yerinə yetirmə səviyyəsi;
7.6.1.5. Tələbənin işgüzar keyfiyyətləri;
7.6.1.6. Tələbənin müəssisənin daxili nizam-intizam qaydalarına riayət etmə dərəcəsi;
7.6.1.7. Tələbənin müəssisə rəhbəri, müəssisə əməkdaşları, şagird və valideyinlərlə davranışı;
7.6.1.8. Tələbənin təcrübə müddətində müstəqil olaraq gördüyü işlər, hazırladığı təkliflər;
7.6.1.9. Rəyin verilmə tarixi, müəssisə rəhbərliyinin və müəssisə üzrə təcrübə rəhbərinin imzası, müəssisənin rəsmi möhürü.
7.6.2. Müəssisə tərəfindən müsbət rəy verilməyən tələbələr hesabata buraxılmır!

## 7.7. Hesabatın hazırlanması qaydası

7.7.1. Təcrübəçi tələbə Pedaqoji internaturanın sonunda gördüyü işlərə dair müvafiq komissiya qarşısında hesabat verməlidir. Təcrübəçi tələbə görülmüş işləri təsvir edərək hesabatın tərtib etməli, sonda imza etməli və tarixi göstərməlidir.
7.7.2. Hesabatda görülən işlərin ardıcıllıqla aşağıdakı quruluşda hazırlanması məqsədəuyğundur.
7.7.2.1. Titul vərəqi (Titul vərəqi vahid formada olmalıdır. Əlavə 1).
7.7.2.2. Mündəricat (Bu hissədə hesabatda olan bütün başlıqların və yarımbaşlıqların səhifələri göstərilməlidir).
7.7.2.3. Əsas hissə
7.7.2.3.1. Hesabatın əsas hissəsində aşağıdakı məsələlərin yer almasına diqqət yetirmək lazımdır:
7.7.2.3.2. Təcrübəçi tələbə haqqında qısa məlumat
7.7.2.3.3. Təcrübə bazası haqqında məlumat
7.7.2.3.4. Görülən işlər haqqında ətraflı məlumat.
7.7.2.3.5. Keçilən sınaq dərsləri haqqında ətraflı məlumat (dərslərin sayı, cədvəli, icmal, protokol). Dərslərin tipləri, dərs növləri. Dərslərdə müvəffəqiyyətli cəhətlər və nöqsanlar, bunların səbəbləri. Sınaq dərslərindən görüntülər. Sınaq dərslərindən aldığı qiymətlər. Dərsdə istifadə etdiyi əyani vəsaitlər, ədəbiyyatlar, mənbələr, istinadlar, İKT vasitələrindən yaralanmaq və s.
7.7.2.3.6. Fərdi planın tərtibi və pedaqoji internaturanın gündəliyinin aparılmasını əks etdirən məlumatlar.

CamScanner ile tarandı

7.7.2.3.7. Fənn üzrə sinifdənkənar keçirilən tədbirlər – dərnək məşğələləri, ekskursiyalar, əlavə məşğələlər, maraq dərsləri və s. haqqında ətraflı məlumat (fotoşəkillər və ya videogörüntülərlə birlikdə).

7.7.2.3.8. Sinifdənkənar tərbiyəvi işlər, onların mövzusu, məqsədi, tərbiyəvi təsir qüvvəsi və s. haqqında (Tədbirin planı, mətni, protokolu, məqsədi, mövzusu, nəticəsi, dəvətlilər, çıxışçılar, tədbirdən görüntülər və s.) ətraflı məlumat.

7.7.2.3.9. Aparılan psixoloji müşahidə və onun nəticələri haqqında məlumat.

7.7.2.3.10. Şagirdlərlə aparılan fərdi işlər, onların nəticəsi.

7.7.2.3.11. Məktəbdə və təhkim olunduğu sinifdəki fəaliyyəti (əyani vəsaitlər hazırlanması, fənn kabinetindəki avadanlıqların təmiri və s. təlimdə geri qalan şagirdlərlə görülən işlər) haqqında məlumat.

7.7.2.3.12. Valideynlərə aparılan işlər, onların mahiyyəti, forma və metodları haqqında məlumat.

7.7.2.3.13. Təcrübə müddətində məktəbin pedaqoji kollektivinin, o cümlədən direktorun, onun müavinlərinin, fənn müəllimlərinin, sinif rəhbərinin işi haqqında məlumat.

7.7.2.3.14. Şəxsi bacarıq və vərdişlər haqqında: lazımi ədəbiyyatların və əyani vasitələrin seçilməsi, təlimin prinsip, üsul və priyomlarının düzgün seçilməsi, İKT vasitələrdən istifadə səviyyəsi, laboratoriya məşğələlərinin və praktik işlərin aparılması, ev tapşırıqları üzərində nəzarətin olması, fənn üzrə tapşırıqlar və digər çalışmaların yerinə yetirilməsi, görülən işlərin yoxlanılması və qiymətləndirilməsi haqqında məlumat.

7.7.2.3.15. Dərsdə şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması; sinif rəhbərinin işinin planlaşdırılması; uşaq birliyi ilə birgə görülən işlər haqqında məlumat.

7.7.2.3.16. Konfrans, disput, görüş, gecə, kitab müzakirəsi və s. haqqında məlumat.

7.7.2.3.17. Divar qəzetinin buraxılması, sinif kollektivinin və ayrı-ayrı şagirdlərin psixoloji xarakteristikasının tərtibi, dərsin və sinifdənkənar tədbirin təhlili haqqında məlumat

7.7.2.3.18. Yerinə yetirilməyən tapşırıqlar və onun səbəbi haqqında məlumat.

7.7.2.3.19. Təcrübə rəhbər(lər)i haqqında məlumat

7.7.2.3.20. Pedaqoji internaturanın təkmilləşdirilməsi üçün təkliflər.

7.7.3. Hesabatlar yazılı formada təqdim edilməsi zəruridir. Elektron təqdimat hazırlayan tələbələr (elektron təqdimatlar tələbənin İKT vasitələrindən istifadə bacarığını da ortaya qoyduğundan üstünlük verilsin) hesabatlarını yazılı formada da təqdim etməlidirlər. Hesabat "Arial" şrifti, 14 ölçüdə və 1,5 aralıqla çap edilməlidir. Kağızın formatı A4, yuxarı və aşağı sahələrdən 1,5 sm, sağdan 1 sm və soldan 3 sm olmalıdır.

7.7.4. Kafedraya təhvil verilmiş hesabat və hesabatın müsbət müdafiəsi tələbənin təcrübəsinin müvəffəqiyyətlə sona çatması deməkdir!

## 7.8. Sənədlərin saxlanma qaydası

7.8.1. Təcrübəyə dair bütün sənədlər ixtisas kafedralarında saxlanılmalıdır.

7.8.2. Elektron daşıyıcılarda tələb olunan materiallar, fotoşəkillər "Təcrübə və məzunlarla iş bölməsi"nə də təqdim olunmalıdır

## 8. ƏLAVƏLƏR

8.1. Mövcud tədris planlarına əsasən əyani şöbədə 14 həftəlik (Riyaziyyat və informatika müəllimliyi ixtisasında) pedaqoji internatura 16 fevral-24 may, 20 həftəlik pedaqoji internaturalar isə 16 fevral - 05 iyul tarixləri arasında keçirilməsi nəzərdə tutulur.

CamScanner ile tarandı

8.2. Məşqçilik ixtisasında təcrübənin 10 həftəsi pedaqoji internatura, 10 həftəsi isə məşqçilik təcrübəsi nəzərdə tutulmuşdur.

8.3. Təcrübə rəhbərləri öz sahəsinə uyğun tədbirlər hazırlamalıdır. Məsələn, Tərbiyəvi tədbirlər əsasən pedaqoqa aiddir. Tələbənin ixtisası ilə birbaşa əlaqəli olan bilik yarışları, müsabiqələr, ixtisasa uyğun biliklər tələb edən təbdirlər, ixtisasla bağlı xüsusi günlərin qeydi (məsələn P günü, fizika gecəsi) və s. təcrübə rəhbərinə (metodistə) aiddir. Təcrübə rəhbərlərinin (metodistlərin) adı çəkilən mövzulardan başqa keçirdikləri tədbirlər (məsələn, Novruz bayramı, Beynəlxalq Qadınlar günü və s. digər əlamətdar günlərə aid) hesabata salınmayacaq.

8.4. Təcrübə rəhbəri (metodist), pedaqogika üzrə təcrübə rəhbəri və psixologiya üzrə təcrübə rəhbərinin hər hansı biri digər rəhbərlərin qrafikinə uyğun olaraq, yəni öncədən razılaşdırılmış qrafikə əsasən təcrübə bazasında olmalıdır. (belə ki, üç rəhbərin hər hansı biri mütləq təcrübə bazasında olmalıdır (saatlarına uyğun olaraq)

8.5. Keçirilən tədbirlərin proqramı öncədən baxış və vaxtın təyini üçün "Təcrübə və məzunlarla iş bölməsi"nə təqdim olunmalıdır. Tədbirə dəvət üçün proqramlar tədbirdən ən azı 2-3 gün öncə rəsmi şəkildə aidiyyatı yerlərə təqdim olunmalıdır.

8.6. Təcrübələrin gedişi zamanı xüsusi anları (nümunəvi dərslər, tədbirlər, gəzintilər, görüşlər, təqdimatlar və s.) əks etdirən fotoşəkillər, videogörüntülər tədbirdən dərhal sonra "Təcrübə və məzunlarla iş bölməsi"nə çatdırılmalıdır.

CamScanner ile tarandı

**Əlavə 1**

**HESABATLARIN TİTUL VƏRƏQİ VAHİD FORMADA OLMALIDIR!**

**NÜMUNƏ**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

**Fizika-riyaziyyat fakültəsinin əyani şöbəsinin Riyaziyyat müəllimliyi ixtisası üzrə IV kurs təcrübəçi tələbəsi**

**---------------------------------------------**

**16 fevral 2024-cü ildən 24 may 2024-cü il tarixədək Naxçıvan şəhər 5№-li tam orta məktəbdə keçdiyi Pedaqoji internaturanın**

**H E S A B A T I**

**Naxçıvan – 2024**

CamScanner ile tarandı

**Yaddaş**

**PEDAQOJİ İNTERNATURA**

1. Tədris planlarında pedaqoji internaturanın müddəti 16 fevral - 05 iyul tarixlərinə müəyyənləşdirilmişdir. (Riyaziyyat və informatika müəllimliyi ixtisası istisna olmaqla (16 fevral-24 may))

2. Pedaqoji internatura üçün nəzərdə tutulmuş 30 kreditin 21-nin ümumi təhsil müəssisəsində təcrübənin keçirilməsinə, 9-nun isə hesabatın hazırlanmasına və təcrübə komissiyasına təqdim edilməsinə ayrılsın. Belə ki, ümumi təhsil müəssisəsində təcrübənin keçirilməsi 16 fevral-24 may tarixlərinə nəzərdə tutulsun. Sınaq dərslərinin cədvəli hazırlanarkən bu, nəzərə alınsın. Pedaqoji internaturanın jurnalı 24 may tarixində bağlanmalıdır. 24 may-15 iyun tarixlərində isə hesabatların hazırlanması (təcrübə rəhbərlərinin nəzarəti ilə) və müzakirəsi üçün təcrübə komissiyasına təqdim edilməsi həyata keçirilsin.

3. 15 iyun-05 iyul tarixlərində hesabatların təqdimatı və qiymətləndirilməsi prosesi həyata keçirilsin.

4. 24 may tarixində pedaqoji internaturanın jurnalında "Tələbənin pedaqoji internaturasının qiymətləndirilməsi cədvəli" yekunlaşdırılmalı (hesabatın qiymətləndirilməsi və pedaqoji internatura üzrə yekun qiymət bölməsi istisna olmaqla) və metodist, pedaqoq və psixoloq tərəfindən imzalanaraq fakültə dekanına təhvil verilməlidir. Fakültə dekanı hesabat və yekun qiymətləndirilmə prosesindən sonra təcrübə jurnalında uyğun bölmələri yekunlaşdırıb, imza çəkməli və "Təcrübə və məzunlarla iş bölməsi"nə təhvil verməlidir.

5. Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə təcrübəçi tələbələrin təcrübəsi 16 fevral-24 may tarixlərində nəzərdə tutulmuşdur (2023-2024-cü tədris ilində). Sınaq dərslərinin cədvəli hazırlanarkən bu, nəzərə alınsın. Pedaqoji internaturanın jurnalı 24 may tarixində bağlanmalıdır. Hesabatların hazırlanması, müzakirəsi və qiymətləndirilməsi 31 mayadək yekunlaşdırılmalıdır.

6. Məşqçilik ixtisası üzrə təcrübəçi tələbələr 16 fevral-26 aprel tarixlərində pedaqoji internatura keçməlidirlər. Pedaqoji internaturanın jurnalı 26 aprel tarixində bağlanmalıdır. Sınaq dərslərinin cədvəli hazırlanarkən bu, nəzərə alınsın. 26 aprel tarixində pedaqoji internaturanın jurnalında "Tələbənin pedaqoji internaturasının qiymətləndirilməsi cədvəli" yekunlaşdırılmalı (hesabatın qiymətləndirilməsi və pedaqoji internatura üzrə yekun qiymət bölməsi istisna olmaqla) və metodist, pedaqoq, psixoloq tərəfindən imzalanaraq fakültə dekanına təhvil verilməlidir. Fakültə dekanı hesabat və yekun qiymətləndirilmə prosesindən sonra təcrübə jurnalında uyğun bölmələri yekunlaşdırıb, imza çəkməli və "Təcrübə və məzunlarla iş bölməsi"nə təhvil verməlidir.

CamScanner ile tarandı